# NƏRİMAN HƏSƏNZADƏ - 85



## SƏNİ SEVDİM Kİ...

Mən səni sevəndə yaz havasıydı,
neyləyim, taleyin gözü tökülsün.
Həyatım əlində quş yuvasıydı,
quran özün oldun, uçuran özün.

Mən səni sevdim ki, yoldaş olasan,
həyatın ən ağır, dar yollarında.
Demədim axırda bir daş olasan,
qədim qəbiristanda, yol kənarında.

Mən səni sevdim ki, yüyür, qaç, oyna,
yenə seçilməsin ətrin bahardan.
Demədim təzədən gizlənpaç oyna,
axşam yuxuma gir, səhər qaç ordan.

Yadıma nə düşür! - sənin ad günün,
biz qoca deyirdik, dünya təzəymiş.
İli yox, həyatda insan ömrünün,
anı da tarixi bir hadisəymiş...

## NECƏ UNUDUM

Deyirlər səbr elə, birtəhər unut,
O şirin səslimi necə unudum.
Yaş ötüb, ömrümün payız vaxtıdı
İlk bahar fəslimi necə unudum

Həyatdan köçəli yuxuya dönüb,
bir az bayatıya, ağıya dönüb,
Tamam hissə dönüb, duyğuya dönüb.
duyğumu, hissimi necə unudum.

Məhəbbət, ailə əyləncə deyil,
bir ömür sürmüşəm, bir gecə deyil.
Mən necə unudum, bu məncə deyil,
əslimi, nəslimi necə unudum.

## MƏHƏBBƏT

Mən sənə bağlıyam xatirələrlə,
Nə bilim,
həyatda daha nələrlə.
İztirab vermişəm sənə bir zaman,
sən onu bəxşeyiş adlandırmısan.
Qatmışam gecəni gündüzünü də,
mən sənin mehriban, gül üzünü də
isti göz yaşınla naxışlamışam,
səncə, göz yaşı da bağışlamışam?
Mənim varlığımı çoxu unudub,
endirmək istəyib bəzən lap heçə,
Məni dahilərə bərabər tutub,
sən qibtə etmisən öz ürəyincə,
İnsan dahi olar insan yanında,
Dahi adiləşər nadan yanında.

Yaşa məhəbbətim, yaşa, etibar!
Sənə sədaqətlə öləcəyəm mən.
Harda mənliyimi xatırlasalar,
Yanına böyüyüb gələcəyəm mən.

## NƏ YAXŞI

Torpaqda, səmada sənin nəfəsin,
Bir yeni nəğmədi səhər, nə yaxşı!
Quşlar budağına qonub vələsin
şehi üstümüzə səpər, nə yaxşı!

Suların səsində təzə bir çalar,
yüz il ömr eləsən, yadımda qalar.
Dərələr boyunca yer nəfəs alar,
dumanlar meh olub əsər, nə yaxşı!

Təbiət həssasdır bir ürək kimi,
yarpaqlar qızarıb çiyələk kimi.
Çəməndə gül gördüm kəpənək kimi,
payızda gül-gülü bəzər, nə yaxşı!

Mənim mehribanım, axar, durular,
kədərli vaxtımda boynunu burar,
Fərəhli vaxtımda yanımda durar,
Sevinər nə yaxşı, gülər nə yaxşı!

Düzdür ki, həyatda yalandır ad-san,
Bir eşqə möhtacdır məncə bir insan.
Sən bütün dünyaya dəyərsən, inan,
Dünya yaşamağa dəyər, nə yaxşı!

## QADINSIZ HƏYAT

Bir gün səndən sonra bərk xəstələndim,
canımda payızın əsən yelləri.
Sənsiz mən anasız uşaq kimiyəm,
dünya yad qızıydı məndən ötəri.

Qızın küpə saldı, çay süzdü oğlun,
gördüm o çaşıbdı, ortada qalıb.
Bir qorxu hiss etdim üzündə onun,
neyləsin, yanında tək ata qalıb.

Nəvən də gəlmişdi, sənə oxşayan,
həyat dil açmışdı onun dilində.
Qırılan düyməni tapmışdı şeytan,
iynə-sap gəzirdi köynək əlində.

Baxırdım üzünə bir anlıq susub,
Məni ovsunlayan doğma səsiydi.
Birinci dəfəydi ağrıya dözüb,
susurdum, nazımı kim çəkəsiydi?!

Sənsiz dərk elədim mən bu dünyanı,
keçdi xəstəliyim bu həsb-halla.
Sənin əllərinin öəfası hanı,
Ayağa qalxaydım bircə sığalla.

Mənim taleyimə sərt əsdi külək,
həyatın pis üzü mənə yad deyil.
Qadınsız çətindi həyatı sevmək,
sevgisiz həyat da bir həyat deyil.

## TALEYİN SON TÖHFƏSİ

Sənin göz yaşınla, sənin gülüşün
hərəsi dünyanın bir çalarıydı.
Biri - kölgəsiydi, biri-günəşi,
kölgədə üşüyüb, gündə yanırdım.

Göz yaşı - bir qadın çağırışıydı,
kişilərdə kişiliyə çağırış.
Gülüşün bir qəlbin yaz yağışıydı,
yaşamaq eşqiydi bəlkə bu yağış?!

Dilində şikayət, amma gülürdün,
necə qərar tutub od buz icində?!
Köhnə divar kimi hey sökülürdün,
daş bina kimiydin sən toz içində.

Dünya şirin idi, acı deyildi,
acılar, şirinlər necə təzəydi!
Göz gözün sirrini açıb deyirdi, -
biri o birinin xəbərçisiydi.

Bilmədim, bu yaşda nəydi gunahım,
qarşımda bu gülüş, göz yaşı nəydi?
Pənah gətirmişdin, mənə, pənahım!-
Bəlkə bu taleyin son töhfəsiydi...

## OXU ZALINDA

Mən inadcıl bir gözəllə
danışıram astadan,
bir tələbə narazıdır,
mənə baxır arabir.
Mən bilirəm:
imtahana hazırlaşır o cavan,
mən bu saat imtahanda kəsilirəm,
o bilmir...

## GÜL İLƏ

Sənə baxırdım, sənə...
bir dəstə gül qoydular
bu dəm stol üstünə.
Od aldı yandı könlüm.
Gül ilə ayırdılar
indi də bizi, gülüm.

## MÜBARƏK

Tül örpəyin mübarək!
bəyaz donun mübarək!
Medalyonun mübarək!
Boyunbağın, saatın,
gülüşün, zarafatın,
sənin bütün həyatın
mübarəkdi, mübarək.
Mübarək olsun gülüm,
sən olan dünya GƏRƏK!

## HƏYAT

Niyə haqsız olur bunca təbiət,
Niyə ürəyinə o, dəyir sənin?
Kimsə -
camalını görməyə həsrət,
kimsə - görüşünə gəlməyir sənin.

## QƏRİBLİK

Sən yatırdın yuxudaydın hələ sən,
kim qıyardı gedib vaxtsız oyada.
Yer kürəmiz fırlanırdı, deyəsən,
zaman bir az ləngiyirdi dünyada.

Qanadımı mən üstünə gərirdim,
alışırdım gizli-gizli bu oda.
Mən ilk dəfə qəribliyi görürdüm,
səndən ayrı,
amma sənin yanında.

## DÜŞÜB

Günəşli, ulduzlu, aylı yer kürəm!
üzündə işıq var, üzümə düşüb.
Hayana baxıram, səni görürəm,
gözlərin eynəkdi, gözümə düşüb.

Yerdə göyərərsən yerə atsalar,
suda içilərsən, suya qatsalar.
Dalınca yüyürüb sənə çatsalar,
kimdisə, o mənim izimə düşüb.

Solmayan gül gördüm - yanaqlarındı,
ovcumda təsbeh var - barmaqlarındı.
Bir beşik tapmışam - qucaqlarındı,
ilk dəfə öz haqqım özümə düşüb.